**Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının mənəvi, çox qiymətli, əvəzolunmaz tarixi sənədlərinin qorunub gələcək nəsillərə çatdırılması işində arxiv sənədləri təşkilatlarının müstəsna rol oynamaları haqqında söylədiyi fikirlər bütün dövrlər üçün aktualdır: "Azərbaycan Respublikasının arxiv xidməti təşkilatları xalqımızın çoxəsrlik tarixini öyrənmək üçün qiymətli sənədlərin toplandığı və mühafizə olunduğu elmi-tədqiqat mərkəzidir".**

# Arxiv

## Milli sərvətlərimizin saxlanc yeri

**Qiymətli arxiv sənədlərinə xalqımızın daim ehtiyacı olub və bu gün də belədir. Dövlət hakimiyyəti orqanlarının, idarə, müəssisə, eləcə də xarici ölkələrdən gəlmiş elm adamlarının tədqiqat işlərinin aparılmasında, informasiya, monoqrafiya və dərsliklərin çap edilməsində arxiv xidməti təşkilatlarının daşıdığı missiya misilsizdir.**

Xalqımızın qədim tarixi köklərə malik olması barədə zaman-zaman yazılmış kitablar, ərazilərini əks etdirən xəritələr, əlbəttə, şəxsi fondlarda deyil, arxivlərdə daha etibarlı şəkildə qorunub saxlanılır və külliyyatı nəşr etdirilir.

Milli Məclisin 1999-cu ilin yaz sessiyasında qəbul olunmuş "Milli Arxiv Fondu haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilir ki, sənədləri əməli məqsədlər üçün uzunmüddətli istifadə edilən idarələr- geodeziya və xəritəçəkmə, geologiya və mineral ehtiyatlar, ekologiya və təbiətdən istifadəyə nəzarət, standartlaşdırma, meteorologiya və hidrometeorologiya üzrə dövlət orqanlarının və Azərbaycan Milli Elmlər Akademiyasının arxiv sənədləri müvafiq icra hakimiyyəti orqanlarının icazəsi ilə həmin təşkilatda mühafizə olunur. Lakin digər strukturların hüquqi və digər gərəkli sənədləri rayon icra hakimiyyətləri yanında təşkil edilən arxivlərdə saxlanılır.

Respublikamızda bu istiqamətdə görülən tədbirlər öz müsbət nəticəsini verməkdədir. Xalqımızın milli sərvətlərindən olan qiymətli tarixi sənədlər arxiv və fondlar vasitəsilə qorunub saxlanmaqdadır. Dövlətimizin, onun başçısının diqqət və qayğısı ilə arxiv işinin daha da təkmilləşdirilməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni şəraitlə təmin olunmasında atılan mühüm addımlar təqdirəlayiqdir.

Lakin təəssüflə onu da qeyd etmək lazımdır ki, milli-mənəvi sərvətlərimizdən sayılan arxivlərimizin də bəziləri Ermənistanın işğalçılıq və təcavüzkar siyasətinin qurbanına çevrilmiş, oradakı əvəzedilməz sənədlər məhv edilmişdir. Belə zəngin tarixi mərkəzlərdən biri də 1930-cu ildə yaradılmış Kəlbəcər Rayon Dövlət Arxivi idi...

1993-cü il aprel ayının 2-də Kəlbəcər erməni- rus hərbi birləşmələri tərəfindən işğala məruz qalanda rayonun bütün sahələrini əhatə edən tarixi sənədlər də bu təcavüzün, terrorun qurbanı oldu.

Kəlbəcərin işğalı zamanı rayona dəyən maddi ziyan bir tərəfə, bu qədim yaşayış məntəqəsinin bütünlüklə tarixi keçmişini özündə saxlayan, əvəzsiz sərvətlərdən olan tarixi sənədlər də işğal nəticəsində darmadağın edildi. Həmin tarixdən şəxsi həyatlarını sıfırdan başlayan kəlbəcərlilərin Gəncə şəhərinin Gülüstan qəsəbəsində Aqrar Universitetin 6 saylı yataqxanasında fəaliyyətini bərpa edən rayon təşkilatlarından biri də dövlət arxividir.

Kəlbəcər arxivinin sənədləri də, "Milli Arxiv Fondu haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 saylı fərmanının icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 32 saylı qərarı ilə təsdiq olunmuş normativ hüquqi aktların tələblərinə uyğun olaraq

işlənib hazırlanır. Həmin təlimata müvafiq, 2004-cü il də daxil olmaqla, Kəlbəcər Rayon İcra Hakimiyyətinin, 46 kənd ərazi vahidinin, 19 idarə- müəssisə və təşkilatın fəaliyyəti nəticəsində yaranmış idarəçilik, kargüzarlıq sənədlərindən 2009-cu ilin sonuna qədər 88 fond yaradılmışdır ki, orada da 4366 ədəd iş saxlanmaqdadır.

Qəbul edilən sənədlər, yuxarıda qeyd edilmiş təlimat kitabına uyğun seçilib çeşidlənir, tikilir, haqqında qeydlər aparılır, akt tərtib edilərək dövlət mühafizəsinə təhvil verilir. Hətta fəaliyyətinə xitam verilmiş idarə, müəssisə, təşkilatların idarəçilik və kargüzarlıq sənədləri, vaxtilə mövcud olmuş ( keçmiş sovetlər birliyi dövründə ictimai fəaliyyət növləri kimi) kolxoz və sovxozlarda aparılan aqrar islahatlar başa çatdığı üçün həmin təsərrüfatlarda çalışmış insanlara paylanan əmək bölgüsünə və özəlləşdirməyə dair bütün hüquqi sənədlər dövlət mühafizəsində saxlanılır.

2009-cu ildə Kəlbəcər Rayon Dövlət Arxivinə yeni qəbul edilmiş bir fonda idarə, müəssisə və təşkilatdan 220 iş daxil edilib. Vətəndaşlardan qəbul edilmiş 210 müraciətə (ərizəyə) baxılıb və vaxtında lazımi arayışlarla cavab verilib. İdarə və müəssisələrdən daxil olmuş müraciətlərin sayı bu ilin birinci yarısında 35-ə çatıb. Onlar cavablandırılıb, lazımi sənədlər ünvanına çatdırılıb və arxivə qəbul edilib.

Kəlbəcərlilərin arxiv sənədlərinin bu gün ciddi şəkildə qorunub-saxlanması və mühafizəsində dövlətimizin və onun müvafiq qurumlarının göstərdiyi diqqət və qayğını heç zaman unutmaq olmaz. Onu da qeyd edək ki, arxivin rayonun kənd ərazi nümayəndəlikləri, idarə, müəssisə və təşkilatları ilə birgə fəaliyyəti öz bəhrəsini verməkdədir.

Xatırlatmaq istərdim ki, işğal altında qalan rayonlarımızdan biri kimi, Kəlbəcərin də arxiv sənədlərinin qorunub-saxlanılması və mühafizəsi işi rayon rəhbərliyinin yaxından dəstəyi və Respublika Milli Arxiv İdarəsinin köməyi ilə dövlətimizin göstərdiyi qayğıya cavab verir.

**Hər bir arxiv sənədi təkcə fərdi vətəndaşların deyil, təmsil olunduğu xalqın və dövlətin əvəzolunmaz sərvəti kimi qorunmalıdır. Biz də işimizi məhz bu prinsiplər əsasında qurur, üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırıq.**

**İbrahim SADIQOV,**
*Kəlbəcər Rayon Dövlət Arxivinin müdiri*